# Həsən bəy Zərdabi ənənələrinə sadiq qalan mətbuatımız

**Azərbaycanın mətbuat tarixi Həsən bəy Zərdabinin 1875-ci ildə yaratdığı "Əkinçi" qəzetinin nəşri ilə başlamış və qəzetin ilk sayının işıq üzü gördüyü gün - 22 iyul hazırda Azərbaycanda Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunur.**

"Əkinçi" qəzetinin nəşri bütün Qafqazda əks-səda doğurmuşdu. Qəzetin fəaliyyəti Azərbaycanda maarifçiliyin əsasını möhkəmləndirmiş, millətin yeni qələm sahiblərinin - təfəkkürlü ziyalıların, neçə-neçə jurnalist nəslinin yetişməsində tarixi xidmətlər göstərmişdir. "Əkinçi" eyni zamanda qadın azadlığı və qadın təhsili məsələlərini təbliğ etmiş, dini mövhumata, xurafata və cəhalətə qarşı kəskin çıxışlar etmiş, dövrünün ictimai-siyasi, eləcə də bədii düşüncəsinin inkişafına böyük təkan vermişdir. Ən əsası da bütün bu ictimai azadlıq ideyaları milli dilimizdə - Azərbaycan dilində reallaşdırılmışdır.

H.Zərdabi yaradıcısı, təşkilatçısı və redaktoru olduğu "Əkinçi" qəzetini doğma ana dilində nəşr etməklə milli mətbuatın bünövrəsini qoymuş, dövrünün ziyalılarını bu qəzet ətrafında sıx birləşdirərək öz vəzifəsini şərəf və ləyaqətlə həyata keçirmişdir.

Azərbaycan mətbuatının banisi H.B.Zərdabinin yaratdığı qəzet yalnız Azərbaycanda deyil, bütün Şərqdə şərəfli və uğurlu başlanğıcdır. Bu qəzet yalnız əkin-biçin mədəniyyətini deyil, çağdaş düşüncə, müasir təbliğat və təşviqat mədəniyyətinin başlanğıcıdır. Cəmi iki il nəşr olunan bu qəzet fikirlərdə, düşüncələrdə inqilab etdi. XX yüzilliyin əvvəllərində onun övladları "Füyuzat", "Molla Nəsrəddin", "Zənbur", "Şəlalə", "Açıq söz", "Azərbaycan" oldu.

Azərbaycan mətbuatının özünəməxsus inkişaf yolu vardır. Keçən əsrin əvvəllərindən başlayaraq Azərbaycan ziyalıları, xalqımızın qabaqcıl oğulları milli mətbuat yaratmaq uğrunda uzun illər boyu gərgin mübarizə aparmalı oldular. XIX əsrin ikinci yarısında belə bir qəzet yaranmış və xalqımızın mədəni həyatında mühüm bir hadisəyə çevrilmişdir. "Əkinçi" qəzetinin nəşri Azərbaycan xalqının mədəniyyəti tarixində əlamətdar hadisələrdəndir. Bu qəzet ictimai fikir tarixində olduğu kimi, realist ədəbiyyatın, xüsusilə poeziyanın qarşısında duran vəzifələrin izah olunmasında və aydınlaşdırılmasında dövrü üçün böyük rol oynamışdır.

Əli bəy Hüseynzadənin təbirincə desək, "Aləmi-islam bir qaranlıq içərisində qaldığı zaman bu adam - Həsən bəy Zərdabi əlinə məşəl alıb qaranlığı işıqlandırmağa çalışmışdı".

Öz vətəninə, öz xalqına təmənnasız xidməti ilə Azərbaycan xalqının yaddaşında əbədi iz qoymuş Həsən bəy Zərdabinin həyatı, əməlləri gələcək nəsillər üçün əsl tərbiyə və həyat məktəbi olmuşdur. O, xalqın zülmət içərisində olduğu bu dövrlərdə onlara yol göstərən, həqiqi inkişaf yoluna çağıran müdrik şəxsiyyət idi. O, alim, filosof, xeyriyyəçiliyin bünövrəsini qoyan, ən əsası isə milli mətbuatımızın banisi idi.

H.Zərdabi qədim Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab şəhərində) maarifpərvər bir ailədə dünyaya göz açmışdı. Körpə yaşlarından atası Səlim bəy tərəfindən ona təlim-tərbiyə, elə, obaya, vətənə sevgi duyğuları aşılanmışdı. Həsən bəy öz bacarığı və fitri istedadı ilə yaşıdlarından xeyli fərqlənirdi. Atası Səlim bəy bu istedadı görüb onu Şamaxıda yenicə açılmış məktəbə gətirmişdir. O, bu məktəbdə təhsil aldığı zaman rus dilinə xüsusi maraq göstərir və rus dilinin qrammatikasını öyrənməklə dərin elmi biliklərə yiyələnir. 1858-ci ildə bu məktəbi əla qiymətlərlə başa vurduğu üçün onu dövlət hesabına Tiflis gimnaziyasına göndərirlər. Orada müvəffəqiyyətlə imtahan verərək 5-ci sinfə daxil olur. 1860-cı ildə gimnaziyanı əla qiymətlərlə bitirərək imtahansız Moskva Universitetinin Fizika-riyaziyyat fakültəsinin təbiətşünaslıq şöbəsinə daxil olmuşdur. 1865-ci ildə Moskva Universitetini əla qiymətlərlə bitirdiyinə və nümunəvi tələbə olduğuna görə elmi şuranın qərarı ilə ona təbiət elmləri namizədi alimlik dərəcəsi verilir. Burada belə bir mühitdə onun gözləri açılır, qabaqcıl fikirli adamlarla dostluq edir. Hətta universiteti əla bitirdiyi üçün onu kafedrada saxlamaq təklifi də olunur. Lakin Həsən bəy Zərdabi doğma yurduna, elinə, obasına - Azərbaycana gəlir. "Mənim xalqım bu saat qəflət yuxusundadır, cəhalət girdabında boğulur, mənim kimi adam bunu görüb onlardan kənarda qala bilməz". Gənc alim bu ideyalarla yaşayır və səmərəli bir iş görmək istəyir. Bir müddət Qubada barışıq məhkəməsinin katibi vəzifəsində çalışır. Burada da o haqsızlıqlarla üzləşir. Sonra Şamaxıda şəxsi vəkilliklə məşğul olur. 1869-cu ildə Bakı Real Gimnaziyasında təbiət tarixi fənnini tədris etməyə başlayır. 1872-ci ildən Azərbaycanda ilk "Xeyriyyə cəmiyyəti"nin əsasını qoyur. 1873-cü ildə gimnaziyada M.F.Axundovun "Hacı Qara" komediyasının tamaşasını təşkil edir. Həsən bəy Zərdabi məhz bu tamaşa ilə Azərbaycan Milli Teatrının əsasını qoyur.

Həsən bəy qəzet nəşr etməyin vacibliyini dərk edir və bu ideyanı həyata keçirməyə çalışır. Xeyli əzab-əziyyətdən sonra arzusuna çatır. 1875-ci il iyul ayının 22-də Bakıda ilk anadilli "Əkinçi" qəzeti işıq üzü görür. İlk demokratik mətbuatımızın yaranma tarixi bununla başlayır. Qəzetin bütün işlərini təkbaşına özü görür. Ancaq H.B.Zərdabi bu qəzeti nəşr etməklə xalq arasında elmi, mədəniyyəti inkişaf etdirib yaymaq, xalqı maarifləndirmək, millətin hərtərəfli inkişafına nail olmaq istəyirdi. O, müsəlmanlara, onların uşaqlarına boş-boşuna nağıl danışmamağı, elm öyrətməyi, digər millətlərin ziyalılarına baxıb inkişaf yollarını, hər an vətəni sevməyi, qürurlu olmağı tövsiyə edirdi. Eyni zamanda bu dərdlərə əlac da axtarırdı.

H.Zərdabi "Əkinçi"də yazırdı: "Qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin". Əlbəttə, qəzet həyatın güzgüsü olmalı, "yaxşı və yamanlığını" göstərməlidir, xalqı ayıltmalı və inkişafa səsləməlidir. Bu zamanlar Zərdabinin ictimai-siyasi fəaliyyətindən razı qalmayan Bakının yeni qubernatoru onu hər zaman izləyirdi. 1877-ci ilin sentyabr ayında "Əkinçi" qəzetinin 56 nömrəsi işıq üzü gördükdən sonra bağlandı. Müxtəlif bəhanələrlə H.Zərdabi gimnaziyada müəllimlikdən də azad edildi və hətta Bakıda qalmasını məsləhət bilmədilər. O da öz dogma yurdu Zərdaba köçməyə məcbur oldu. Bir müddət Zərdabda yaşasa da, Rusiyada nəşr olunan mətbuat orqanları ilə əlaqə saxlayır, həm də qəzetlərdə öz yazıları ilə çıxışlar edirdi.

İndi Azərbaycan mətbuatı, Azərbaycan sözü dünyaya ayaq açıb, müstəqilliyimizi qurmuşuq. Mətbuat aləmimizin fəxr etməli ənənələri yaranıb. Mətbuatımızın ilk yaradıcısı, ilk qaranquşu olan Həsən bəy Zərdabi ənənələrini davam etdirən mətbuat orqanlarımız var. Hazırda mətbuatımız ordudan, silahdan daha güclü bir şəkildə Azərbaycanın mənafelərinin keşiyində dayanmışdır.

Azərbaycan mədəniyyəti tarixində ədəbi-bədii əsərlərin milli mətbuat səhifələrində ilk dəfə nəşri "Əkinçi" qəzeti ilə başlanır. Qəzetin həm də ədəbi əhəmiyyəti var idi və satirik-realist üslubda bir sıra poeziya nümunələrinin yaranmasına kömək etdi. Özülü A.Bakıxanov, M.Ş.Vazeh, Qasım bəy Zakir tərəfindən qoyulan maarifçi realist ədəbiyyat böyük mütəfəkkir M.F.Axundovun ecazkar qələmi ilə çox yüksək zirvəyə qaldırılmışdır. Rus inqilabçı demokrat və qabaqcıl alimlərinin, habelə Azərbaycan maarifçilərinin fikirlərini dərindən öyrənən H.B.Zərdabi "Əkinçi"nin nəşrinə başlarkən məhz bu mənəvi sərvətə istinad edir, ondan ilham alırdı. Qəzetin ədəbi xəttini-hərəkətini müəyyənləşdirən M.F.Axundov, H.B.Zərdabi, S.Ə.Şirvani, N.B.Vəzirov kimi realist sənətkarların ədəbi, publisist və tənqidi əsərləri idi. Bu illərdə "Əkinçi" Azərbaycan realist ədəbiyyatının ənənələrini davam və inkişaf etdirən yeganə milli mətbuat orqanı idi.

"Əkinçi" Azərbaycan ədəbiyyatı və incəsənətinin saflığı uğrunda mübarizəni üç xətt üzrə aparırdı: Ədəbiyyat və incəsənətdəki formalizm təmayüllərinə qarşı çıxır; Dini-mərsiyə ədəbiyyatı əleyhinə mübarizə edir; İctimai satiranı genişləndirmək uğrunda fəal mübarizə aparırdı.

Tənqidi realizmin geniş meydan alıb qüvvətləndiyi bir dövrdə yeni keyfiyyətli ədəbiyyatın ideya mövzu xüsusiyyətləri də getdikcə zənginləşir, yeni məzmun köhnə qəliblərə sığışmır, realist yazıçılar yeni bədii formalar axtarıb tapırdılar

H.Zərdabi "Əkinçi"nin ədəbi mübarizəsinin dərin ictimai mənasını, ədəbiyyat qarşısında duran böyük tarixi vəzifəni bütün ciddiyyəti ilə ümumiləşdirərək deyirdi: "Bu halda müsəlman milləti tufana düşmüş gəmi təkidir ki, hər ləpə onların bir hissəsini aparıb qərq edir. Belə də çox biəhəmiyyətlik istər ki, qardaşlarımızın qərq olmağına baxa-baxa inək irəlidən yediyi xörəyi gövşəyən kimi Rüstəm Zalın nağılını oxuyub keçmişdə olanların qüvvətinə fəxr edək və öz qərq olmağımıza əlac etməyək". ("Əkinçi" qəzeti, 1876, N-7)

H.Zərdabi məsələni ona görə belə qoyurdu ki, onun dövründə yazıçılar içərisində ədəbiyyatın yeni dövrdəki vəzifələrini başa düşməyib, yerində sayan təqlidçi, formalist şairlər, ədəbi ənənələri daim inkişaf etdirmək lazım gəldiyini, ədəbiyyatın həmişə xalqla bir addımlamalı olduğunu başa düşməyənlər var.

H.Zərdabi el mahnıları üstündə oxunan şeirləri toplayıb 1901-ci ildə "Türk nəğmələri məcmuəsi" adı ilə çap etdirmişdir. Bu ilk nəğmə kitabçasına 18 nəğmə daxil edilmişdir. Bu nəğmələrin bəzisi müəllifsiz çap olunmuşdur. Həmin imzasız şeirlərdən bir qisminin H.Zərdabi tərəfindən qələmə alındığı güman edilir.

H.Zərdabinin "Köçəri zindəganlığı" hekayəsi öz dövrü üçün çox mühüm və aktual mövzuya həsr edilmişdir. Bu mövzu ilə yazıçının maarifpərvərlik və tərəqqipərvərlik ideyaları arasında yaxın bir bağlılıq və daxili səsləşmə vardı. Bir publisist kimi ömürboyu feodal-patriarxal quruluş əleyhinə, avamlığa və cəhalətə, mövhumat və ətalətə qarşı mübarizə aparan, doğma xalqının maariflənməsi və dünya mədəniyyətinin nailiyyətlərinə yiyələnməsi üçün yorulmadan çalışan böyük vətənpərvər bu əsərində də tənqid atəşini köhnə adət-ənənələrə qarşı çevirmişdi.

O zaman Moskvada təhsil alan Nəcəf bəy Vəzirov və Əsgər ağa Gorani fərəhlənərək qəzetə bir-birinin ardınca maraqlı məqalələr göndərirdilər. Tiflisdən M.F.Axundov "Vəkili-milləti-naməlum" imzası ilə məqalələr göndərirdi. Şamaxıdan S.Ə.Şirvani camaatı qəflət yuxusundan oyatmağa çağıran şeirləri ilə qəzetin oxucularını sevindirirdi. Əhsənül-Qəvaidin Rəşt şəhərindən səsi eşidilirdi. Dərbənddən isə Heydəri yazmağa başladı. Onlar qəzetə yeni üslub, yeni forma gətirdilər. Bütün bu müəlliflərin fəaliyyətinə istiqamət verən, onların məktublarını redaktə edib qəzet üçün hazırlayan, şübhəsiz ki, H.Zərdabi idi.

H.Zərdabi qəzetə ana dilini öyrədən bir məktəb kimi baxırdı, eyni zamanda yazırdı ki, "qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir". O, təcrübədə sübut edirdi ki, Azərbaycan mətbuatı öz milli zəmini üzərində inkişaf etməyə qadirdir. Qəzet xalqın həyatında inkişafa doğru təkanverici amil ola bilər. H.Zərdabinin həyat yoldaşı Hənifə xanımın xatirələrində bu cəhət belə səciyyələndirilir: "Bir dəfə fransız qəzetinin baş müxbiri Bakıya gəlib çıxmışdı. O, Rusiyada Azərbaycan dilində çıxan yeganə qəzetlə maraqlanıb yanına gəlmişdir. Qəzetin 2 il müddətində ancaq 300 abunəçisi olduğunu bilincə müxbir təəccüblə H.Zərdabiyə baxıb səmimi surətdə dedi: "Siz qəhrəmansınız, bizim Fransada bu cür yoxsul qəzetlər üçün işləyən adam tapılmaz, sizin energiyanıza heyran qalmışam. Görünür, siz öz xalqınızı çox sevirsiniz".

M.F.Axundov 1872-ci ildə rus əlifbası ilə Azərbaycan dilində qəzet çıxarmaq fikrini irəli sürmüşdür. Böyük ədib bu ideyalarla yaşadığı bir zamanda H.B.Zərdabinin "Əkinçi" adlı qəzet nəşr etdirmək fikrini eşidib onu ilkin alqışlamışdır. M.F.Axundov və H.B.Zərdabini bir-birinə yaxınlaşdıran mühüm cəhətlər çoxdur. Hər şeydən əvvəl qeyd etməliyik ki, Azərbaycanda ilk milli teatrın yaranması bu iki mütəfəkkirin adı ilə bağlıdır.

Görkəmli maarifçi S.Ə.Şirvaninin yaradıcılığının mühüm bir hissəsi "Əkinçi" qəzeti ilə bağlıdır. "Əkinçi" S.Ə.Şirvaninin əlində qabaqcıl elm və maarifçi ideyalarını yaymaq üçün, dini əfsanəyə və savadsızlığa qarşı mübarizə üçün bir xitabət kürsüsünə çevrilmişdir. O, H.Zərdabinin xeyirxah, maarifçi ideya təşəbbüslərini qızğın bir ehtirasla müdafiə edib onu alqışlayırdı.

"Əkinçi" qəzeti ətrafında çalışanlardan biri də ən gənc və fəal müxbir, görkəmli dramaturq N.B.Vəzirov idi. N.B.Vəzirov öz dramaturgiya və jurnalistlik fəaliyyətinə M.F.Axundovun və "Əkinçi" qəzetinin təsiri ilə başlamışdır. Onun məqalələrində zəhmətkeş kəndlilərin bəy və xanlardan üstün tutulduğu ifadə olunurdu. Bu isə Azərbaycan maarifçilərinin başlıca xüsusiyyətlərindən biridir.

"Əkinçi" zamanın tələbi səviyyəsində dayanaraq öz səhifələrində azadlıq, maarifçilik ideyaları təbliğ edib, həyatı daim dəyişməkdə görüb, xalqı yeniliyə səsləyib.

"Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışdır.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır".

Prezident İlham Əliyevin Zəfər savaşı zamanı dünya media orqanlarına verdiyi çoxsaylı müsahibələrdə səsləndirdiyi prinsipial mövqe jurnalistlərimizi həm qətiyyətləndirdi, həm də dövlətimizin başçısının irəli sürdüyü tezislər onları xaricdən edilən informasiya təxribatlarına qarşı mübarizənin müsəlləh əsgərinə çevirdi. Bu günə qədər davam edən informasiya müharibəsində mətbuat işçiləri öz peşəkarlığı və vətənpərvərliyi ilə daim fərqləniblər. Prezident İlham Əliyev fəaliyyətində dəfələrlə göstərib ki, jurnalistlərin dostudur. Ən çətin, ən ağır dönəmlərdə belə mətbuatın yanında olub, medianın sosial-iqtisadi rifahının yaxşılaşdırılması üçün mühüm addımlar atıb. Bu gün də bu sərəncam bir daha təsdiqlədi ki, Azərbaycan dövləti milli söz azadlığının qorunmasına və mətbuatın inkişafına ciddi əhəmiyyət verir.

***Adil ABDULLAYEV,***
***"Gənclik" nəşriyyatının direktoru,***
***Əməkdar mədəniyyət işçisi***

Azərbaycan.-2025.- 22 iyul (№ 149).- S.16.